Biz milli qürurumuzu və şərəfimizi hər şeydən uca tuturuq!

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Müstəqilliyimizin şərəf tarixinin yeni səhifəsi

İşğalçı Ermənistan ordusu sentyabrın 27-də genişmiqyaslı təxribatlara başlayanda bəlkə də bu ölkənin siyasi rəhbərliyi düşünmürdü ki, Azərbaycan Ordusunun əks-həmlələri qarşısında aciz qalacaq, növbəti döyüş əməliyyatları nəticəsində darmadağın olacaqlar. Görünür, işğalçı ölkənin rəhbərliyi Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasında olduğunu hələ də həzm edə bilmirmiş. Əgər belə olmasaydı, genişmiqyaslı hücuma başlamazdı. Axı, 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt və 2020- ci ilin Tovuz əməliyyatlarında təcavüzkarlar Azərbaycan Ordusunun qüdrətini görmüşdülər. Bundan sonra hansı hünərlə yenidən müharibəyə başladılar? Bu, sirri -Xudadır

Başqa ölkələrin ərazilərində dövlət kimi formalaşan Ermənistan kiminsə hesabına yaşamağa bir növ adət edib. İndiyə kimi havadarlarının dəstəyi ilə Azərbaycan ərazilərində dəhşətli terror aktları törədən, ərazilərimizi işğal edən, dinc sakinləri vəhşicəsinə qətlə yetirən, sağ qalanları isə doğma ata-baba yurdlarından didərgin salan barbarlar bu dəfə istəklərinə nail ola bilmədilər. Bu vaxta qədər törətdikləri vəhşiliklərə görə layiqli cavab alırlar. Cəmi bir həftə ərzində Ermənistan ordusunun 27 ildir işğal olunmuş ərazilərimizdə möhkəmləndirdiyi müdafiə xətləri darmadağın edildi, çoxlu sayda canlı qüvvə və hərbi texnikası sıradan çıxarıldı.

Müdafiə Nazirliyinin verdiyi məlumata görə, rəşadətli ordumuz Tərtər, Füzulu və Cəbrayıl rayonlarının işğalda olan 25 kəndini, habelə Cəbrayıl şəhərini, Murovu, həmçinin bir sıra strateji əhəmiyyətli yüksəklikləri azad edib. Ölkə rəhbərliyinin, Müdafiə Nazirliyinin yaydığı açıqlamalardan məlum olur ki, qısa müddətdə işğaldan azad ediləcək ərazilərimizin siyahısı kifayət qədər genişlənəcək. Necə deyərlər, hər gün qələbə sorağındayıq.

Muzdlular da kara gəlmədi...

Azərbaycanda vəhşiliklər törətməkdə davam edən təcavüzkar Ermənistanın baş naziri muzdlu döyüşçü axtarışına çıxıb. Çünki erməni hərbçilər, xüsusilə gənclər döyüşdən imtina edirlər. Artıq 4 mindən çox fərarinin olduğu bildirilir və onların sayı sürətlə artır. Cəbhəni tərk edənlərin güllələnəcəyi barədə əmr verilsə də, erməni hərbçiləri silah-sursatı, ağır texnikanı, hətta döyüş bayrağını atıb qaçırlar. Nikol Paşinyan mövqeyini möhkəmləndirmək üçün bəzi ölkə və təşkilatları münaqişəyə cəlb etməyə çalışır. Onun ümid yerlərindən biri də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) idi. Ancaq oradan da, necə deyərlər, əli ətəyindən uzun qayıtdı. Sonra Rusiyaya, ABŞ-a və digər ölkələrdən də rədd cavabı aldı.

"Ermənistan ordusu ən güclü ordudur" mifi artıq paramparça olub. Ona görə də ümid yeri muzdlu döyüşçülər oldu. Ötən döyüşlərdə də işğalçı ölkənin hərbçiləri sırasında muzdlu döyüşçülərin olması barədə məlumat yayılırdı. Ancaq hər dəfə işğalçı tərəf bu məlumatı inkar edir, guya, döyüşçülərin ancaq erməni əsgərlərinin olduğunu iddia edirdilər. Bu dəfə isə həqiqətdən qaça bilmədilər. Ermənistan tərəfində muzdlü döyüşçülərin olması faktı rəsmən Suriya İnsan Haqları Monitorinq Mərkəzindən gəldi. Mərkəzin yaydığı məlumatda bildirildi ki, erməni əsilli 4000-ə yaxın suriyalı döyüşçü Suriyadan Ermənistana aparılıb və hazırda həmin döyüşçülər cəhbə bölgələrində azərbaycanlılara qarşı vuruşurlar.

Bundan əlavə, Ermənistan tərəfi xarici ölkələrdə yaşayan erməni mənşəli diaspor üzvlərini müvəqqəti işğal altındakı Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş hərbi birləşmələrinə cəlb edib. Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin açıqlamasında da bu fakt öz əksini tapıb. Suriya, Livan, Rusiya, Gürcüstan, Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin vətəndaşları olan minlərlə erməni mənşəli şəxsin döyüşlərdə iştirak üçün işğal olunmuş ərazilərimizə gəldiyi və ya gəlməyə hazırlaşdığı bildirilir. Ancaq buna baxmayaraq, bu dəfə muzdlular da kara gəlmədi. Artıq Azərbaycan Ordusu işğal altındakı ərazilərimizi bir-birinin ardınca azad edir.

Özü yıxılan ağlamaz

Acınacaqlı məğlubiyyətdən yaxa qurtara bilməyəcəyini duyan qeyri-peşəkar hökumət başçısı Nikol Paşinyan az qala ölkə-ölkə düşüb yalvarır, döymədiyi qapı qalmayıb. Əgər vaxtında məsuliyyətsiz bəyanatlar verməsəydi, düşünülməmiş addımlar atmasaydı, necə deyərlər, papağını qarşısına qoyub yaxşı-yaxşı fikirləşsəydi, bu gün müxtəlif ölkələrin başçılarının qapısını döyməzdi. Dili topuq vura-vura "Qarabağ Ermənistandır" – deyəndə bu günü fikirləşməli idi. Görünür, bu fikirləri səsləndirəndə əsl mahiyyətini dərk etməyib. ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri ilə telefonla əlaqə yaradıb və Donald Trampla danışmaq istədiyini bildirəndə ona bu işdə kömək ediləcəyi vəd olunsa da, sonradan Ağ ev başçısının koronavirusa yoluxduğu bildirilib və telefon danışığı rədd edilib. Rusiya Prezidenti Vladimir Putin Paşinyanın aramsız telefon zənglərinə cavab vermir, "Sonra zəng vuraram" – deyib başından edir. Hər gün Azərbaycan Ordusunun qələbə sorağı isə Nikol Paşinyanı daha çətin duruma salır.

Bu vaxta qədər gözləmə mövqeyində olan, daha dəqiq desək, Ermənistanın "qələbəsini bayram etməyə hazırlaşan" bəzi təşkilatlar və ermənipərəst dövlət rəsmiləri vəziyyətin onların gözlədiklərinin tam əksinə olduğunu gördükdə siyasi riyakarlığa əl atır, beyznəlxalq hüquq normalarına açıq şəkildə zidd mövqe sərgiləyirlər. Bu işdə Fransa Prezidenti Emmanuel Makron hamıdan öndə gedir və unudur ki, rəhbərlik etdiyi ölkə münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürüb. Dağlıq Qarabağda hərbi əməliyyatlar başlanandan bəri Fransa Prezidentinin tutduğu mövqe və verdiyi bəyanatlar bu ölkənin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına tamamilə ziddir. E.Makron ölkəsinin neytral vasitəçilik missiyasının tələblərini kobudcasına pozaraq təcavüzkar Ermənistanı birmənalı şəkildə müdafiə edir. Onun "Azərbaycanın Dağlıq Qarabağa endirdiyi zərbələrə haqq qazandırmaq mümkün deyil" və "Azərbaycanın Dağlıq Qarabağı yenidən işğal etməsinə imkan verməməliyik" – kimi sərsəm fikirləri bu şəxsin böyük bir ölkənin prezidenti olmasına görə təəssüf hissi yaradır.

Eləcə də, özünü insan hüquq və azadlıqlarının müdafiəçisi kimi təqdim edən "Amnesty International" təşkilatının döyüşlər barəsindəki açıqlaması bu qurumun nə qədər saxtakar, riyakar, qərəzli olduğunu bir daha təsdilqlədi. İkili standartlardan əl çəkməyən, erməni lobbisinin əlində oyuncağa çevrilən, yalnız Azərbaycan əleyhinə sifarişli bəyanatlar yaymaqla məşğul olan "Amnesty International"ın "Azərbaycan qadağan olunmuş silahlardan istifadə edir" kimi yalan məlumatı ilə, əslində, könül bulandırmaq istəyir. Halbuki, Fransa Prezidenti kimi bu təşkilata da bəllidir ki, Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün öz ərazimizdə vuruşur.

Həm Fransa Prezidentinin, həm də "Amnesty International" rəhbərliyinin qərəzli, şər-böhtanla dolu açıqlamaları da işğalçı ölkənin köməyinə çatmadı. Dövlətimizin başçısı Ermənistanı, onun baş nazirini, təcavüzkarlara arxa-dayaq duranları vaxtında xəbərdar etmişdi. Ancaq həmin vaxt, deyəsən, həm Ermənistan rəsmilərinin, həm də qərəzli beynəlxalq təşkilatların rəhbərlərinin qulaqları kar, gözləri kor olmuşdu.

Ölkə başçısı yerli televiziya kanallarına müsahibəsində, **BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda, BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda** çıxışlarında, habelə "Rossiya 1" telekanalının "60 dəqiqə" proqramına, Türkiyənin "TRT Haber", və "Əl-Ərəbiyə" televiziya kanallarına verdiyi müsahibələrində Ermənistanın işğalçı siyasətini, baş nazir Nikol Paşinyanın münaqişənin nizamlanmasına zidd müharibə çağırışlarını kəskin tənqid etmişdi. Prezident İlham Əliyev bu ədalətsizliyə göz yuman beynəlxalq təşkilatları da qınaq hədəfinə çevirmişdi. "Rossiya 1" telekanalının "60 dəqiqə" proqramına verdiyi müsahibəsində isə Ermənistanın müharibəyə başladığını, əsas hədəfin dinc əhali olduğunu, humanizm prinsiplərini və beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu faktlarla ortaya qoymuşdu. Ancaq münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupu, həmişəki kimi, bu dəfə də susqunluğa üstünlük verdi. Ermənistanın məğlubiyyətin bir addımlığında olduğunu gördükdən sonra sanki yuxudan ayılıblar. Artıq gecdir. Azərbaycan Ordusu düşməni öz yerində oturdur.

Azərbaycan Ordusunun düşmənə güclü zərbələri işğalçı ölkənin baş nazirini ciddi qorxuya salıb. O, Dağlıq Qarabağ məsələsində güzəştə getməyə hazır olduğunu bildirib. Bunun cavabını isə Prezident İlham Əliyev hələ oktyabrın 4-də əhaliyə müraciətində vermişdi: "Mənim şərtim birdir – çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib.

Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki, indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma, hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam".

Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən xeyli uzaqda yerləşən rayon və şəhərləri raket atəşinə tutmaqla münaqişəni Qarabağ çərçivəsindən çıxarmağa cəhd edir. Son günlər Gəncə şəhəri, Abşeron rayonu, su anbarı və elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinə və digər ərazilərə də orta mənzilli raketlər atmaqla əhalidə qorxu, təşviş yaratmaq istəyirlər. Ancaq bunu insanlardakı sonsuz vətənpərvərlik hissi, on minlərlə ölkə vətəndaşının döyüş bölgəsinə getmək üçün müraciəti də təsdiqləyir. Bu gün həm ölkə, həm də beynəlxalq ictimaiyyətə bəllidir ki, Ali Baş Komandan İlham Əliyev müstəqilliyimizin şərəf tarixinə yeni silinməz səhifələr yazır. Bununla da sentyabrın 27- də başlanan döyüşlərlə millətimizin qürurunu, ləyaqət və şərəfini özünə qaytarır!

Əliqismət BƏDƏLOV,
"Xalq qəzeti"